*AMEA Filologiya və sənətşünaslıq, 2025, № 1* *ISSN 2663-4368*
*Səhifə: 100-103* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2025.1.100*

## Zəlimxan Yaqubun "Saz" poeması

**Nərmin Həsənova**
Elmi işçi
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun
Şifahi xalq ədəbiyyatı və yazılı abidələr şöbəsi
E-mail: nrmn2294@gmail.com

**Annotasiya.** Bədii yaradıcılığının ana xəttini aşıq sənəti təşkil edən Zəlimxan Yaqub yaradıcılığı ilə yalnız Azərbaycanın deyil, bütün Turan elinin şairidir. Zəlimxan Yaqub möhürlü hər bir şeirdən xalqın dünyagörüşü, onun taleyi üçün nigarançılıq, milli-mənəvi varlığımıza olan dərin məhəbbət və onun qorunmasına çalışmaq istəyi aydınca görünür. Xalq şairi Zəlimxan Yaqubun poetik irsi hər cəhətdən mükəmməl nümunələrlə doludur. Lakin onun ulu ozanımız Dədə Qorqudla, sazla, aşıqla bağlı şeirləri həqiqi sənətkarlıq inciləridir. Saz-söz dünyasına doğulan şairin istisnasız hər bir şeiri saz havaları ilə asanlıqla uzlaşır. Sazın-sözün qeyrətkeşi olan şair özü də canlı folklor nümunəsi idi. Folkloru bütün ruhunda daşıyan ustad sənətkarın aşığa, saza olan məhəbbəti heç də təsadüfi deyildi. Zəlimxan Yaqub yaradıcılığında onlarla aşıq obrazı nümunəsinə rast gəlirik. Bu əsərlərin heç biri digərinin təkrarı olmamışdır. Onun "Saz" poeması da hər cəhətdən orijinal bir əsərdir. Məqalədə "Saz" poemasının təhlilinə yer verilmiş, Zəlimxan Yaqubun burada yer alan müxtəlif aşıq obrazlarına, ümumilikdə aşıq sənətinə olan münasibəti əks etdirilmişdir.
**Açar sözlər:** ozan-aşıq, saz, aşıq sənəti, obraz, poema, Zəlimxan Yaqub

**Məqalə tarixçəsi**: göndərilib – 24.05.2025; qəbul edilib – 10.06.2025

## Zalimkhan Yagub's poem "Saz"

**Narmin Hasanova**
Researcher
Department of Oral Folk Literature and Written Monuments of the
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail: nrmn2294@gmail.com

**Abstract.** Zalimkhan Yagub, whose main line of artistic creativity is the art of ashug, is a poet not only of Azerbaijan, but also of the entire Turan region. The worldview of the people, concern for their fate, deep love for our national and spiritual existence, and the desire to work for its protection are clearly visible in each poem with the seal of Zalimkhan Yagub. The poetic heritage of the people's poet Zalimkhan Yagub is full of perfect examples in every respect. However, his poems about our great poet Dede Gorgud, saz, and ashig are true pearls of artistry. Without exception, every poem of the poet, born into the world of saz and words, easily harmonizes with the airs of saz. The poet, who was a zealous admirer of saz and words, was himself a living example of folklore. The love of the master artist, who carried folklore in his whole soul, for ashig and saz was not accidental. There are dozens of works in Zalimkhan Yagub's work that include the image of ashig. None of these works was a repetition of the other. His poem "Saz" is also an original work in every respect. The article analyzes the poem "Saz" and reflects Zalimkhan Yaqub's attitude to the various ashug images contained in it and to the art of ashig in general.
**Key words:** ozan-ashig, saz, ashig art, image, poem, Zalimkhan Yaqub

**Article history:** received – 24.04.2025; accepted − 10.06.2025

## Giriş / *Introduction*

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri də saz-söz bilicisi və yaşadıcısı ustad sənətkar, xalq şairi Zəlimxan Yaqubdur. Böyük istedad, dərin bilik sahibi olan bu şəxsiyyət Azərbaycan ədəbiyyatına zəngin töhfələr vermişdir. 1950-ci ildə Borçalının Kəpənəkçi kəndində doğulan şairin bütün həyatı – uşaqlığından başlayaraq ömrünün sonuna qədər saz-söz sənəti ilə vəhdət halında keçdi. Uşaqlıqdan ustad aşıqları dinləyən, daim saz-söz məclislərində olan xalq şairimizin sənətinin istiqamətlənməsində Hüseyn Saraclı, Əmrah Gülməmmmədov, Kamandar Əfəndiyev və bu kimi ustad sənətkarların böyük rolu olmuşdur. Mayası folklorla yoğrulan Zəlimxan Yaqubun əsərlərinə nəzər yetirdikdə həqiqi saz-söz qeyrətkeşi olduğu aydın görülür.

## Əsas hissə / *Main Part*

Z.Yaqub əsərləri içərisində saz dünyası yaratmışdır. Milli mənəvi varlığımıza dərin köklərlə bağlı olan Z.Yaqub bütün ruhu ilə Dədə Qorqud dünyasından üzü bəri gələn yolun ləyaqətli bir təmsilçisidir. Onun yaradıcılığında saz dünyası, ozan-aşıq sənəti, aşıq yaradıcılığı çox mühüm yer tutur. “Haradan gəlir Zəlimxan” şeirində şair bağlı olduğu kökə işarə edir:

“Nəfəsi davamıdı
sazın, qopuzun, udun,
Halalca nəvəsidi
ulu Dədə Qorqudun.
Min ildir ki, yorulmur,
dərs öyrənir “Manas”dan,
Türkün öz taleyidi,
Təpədən dırnağadək
Zəlimxandı bu dastan” [5. s.24].

XX əsr Azərbaycan ədəbiyyatı tarixində olduqca mürəkkəb bir dövrü əhatə edir. Əsrin 20-30-cu illərindən başlayaraq sovet rejiminin Azərbaycan folkloruna münasibəti olduqca sərt idi. Folkloru sadə, qara camaatın yaratdığı qənaətində olan mövcud ideoloji sistem yazılan əsərlərdə yer alan şifahi xalq ədəbiyyatı nümunələrini ideoloji məqsədə yönəltmə tələbində idi. Əsrin 40-50-ci illərində də folklora münasibət demək olar ki, eyni idi. “Kitabi-Dədə Qorqud” eposu ilə bağlı verilən yasaq qərarı, folklorşünaslarımıza göstərilən təzyiq həmin dövrün sərt ab-havasından xəbər verirdi. Artıq 60-cı illərdən başlayaraq siyasi mülayimləşmələr özünü göstərdiyindən folklora münasibətdə canlanma baş verdi. XX əsrin səksəninci illərində milli-mənəvi dəyərlərin təbliği daha da artdı, bu mənada folklora, xüsusən də aşıq mövzusuna münasibət gücləndi. Şair, yazıçı və dramaturqlarımız bədii əsərlərdə bir-birindən müxtəlif mövzuda yazdıqları əsərlərdə aşıq obrazlarına yer verdilər. Xalq şairi Zəlimxan Yaqubun da bu istiqamətdə gördüyü işlər misilsizdir. Ədəbiyyatşünas alim Bədirxan Əhmədov haqlı olaraq qeyd edir ki, “milli ruhun sovet dövründə çərçivəsi daralsa da Z.Yaqubun mövzularında və bədii ifadə formalarında yenidən boy göstərir. Üslubunda həm gələnəkdən gələn ənənəvilik, həm də bu gələnəkləri özündə birləşdirən Füzuli kədəri, Vaqif nikbinliyi, Sabir tizfəhmliyi, Cavid turançılığı, Səməd Vurğun azərbaycançılığı var” [1].

Zəlimxan Yaqubun yaradıcılığında aşıq, saz obrazları ilə bağlı əsərləri kifayət qədər çoxdur. Bu əsərləri içərisində “Saz” poeması milli-mənəvi təsəvvürlərin əks olunması baxımından xüsusi diqqətimizi çəkir. Professor Xudu Məmmədovun təkidi ilə 1985-ci ildə poema janrında qələmə aldığı əsərin giriş hissəsində ulu ozanımız Dədə Qorqudu vəsf edərək sazın tarixinə də qısa nəzər yetirir. Bununla şair soykökə qayıdışı, özünüdərki millətə təbliğ edir. “Saz əbədi Leylim olub” deyən şair poemaya başlamaq üçün Dədə Qorquddan xeyir-dua istəyir.

“Telli sazın dastanını
Özün başla, ustad Dədə!
Söz sehrinə varmaq üçün,
Ver ruhuma qanad, Dədə!” [6. s.7]

Aşıq sənətinə dərindən bələdliyi onun “Saz” poemasını yazmağa səbəb olmuşdur. Əlbəttə bu poema onun sazla, aşıqla bağlı ilk əsəri deyildi.

Lakin bu poemada şair özünə məxsus manevrlərdən istifadə edərək əsərə canlılıq qatmışdır. Yəni əvvəlki şeirlərində olan ənənəni təkrarlamamışdır. Bəs Zəlimxan Yaqubun yeniliyi nə idi? Zəlimxan Yaqub burada aşıq şeir formalarından istifadə etsə də fərdi üslubu, qeyri-adi istedadı ilə yeni məzmun yaradaraq ənənə ilə müasirliyi vəhdətdə təqdim edərək orijinal bir əsər yaratdı. "Saz" poeması aşıq havaları üzərində qurulmuşdur. Ədəbiyyatşünas alim Azər Turan bu poemanı belə qiymətləndirir: "Etiraf etməliyik ki, Azərbaycan muğamının dərki müstəvisində ədəbiyyatın timsalında Bəxtiyar Vahabzadənin "Muğam" poeması hansı işi görübsə, Zəlimxan Yaqubun "Saz" poeması da saz havalarının dərki müstəvisində eyni işi görür" [4. s.8]. Ustad şair saz havalarının tərifinə keçməmişdən öncə sözü ulu ozana verir. O bu hərəkəti ilə Azərbaycan xalqının milli kimliyinin ən böyük dəyərlərində olan ozan-aşıq sənətinə ehtiramını bildirir. Ulu Ozanın – Dədə Qorqudun düşüncələri dünən olduğu kimi bugün də eli ilə bağlıdır.  Şair ozan Dədənin dili ilə oxucusuna çatdırır ki, müxtəlif zamanlarda Azərbaycan xalqının tarixində hansı hadisələr yaşandısa da xalqın taleyindən, yaddaşından heç kim müqəddəs izləri silə bilmədi. Bütün ruhu saz-söz çeşməsi olan ustad sənətkar ulu ozanın dilindən verdiyi öyüd-nəsihətlərdə aşıq sənətini, onun ruhunu qorumağın, gələcək nəsillərə çatdırmağın zərurətindən və faydasından danışır.

"Sevirsənsə, yolda qoymaz,
Saz adlanan bu yar səni!
Sazla hamı əzizləyər,
Sazla hamı duyar səni!" [6. s.10].

Poemanın "Danış telli sazım" hissəsində şair sazla baş-başa qalır. Varlığının yalnız sazdan-sözdən ibarət olduğunu poetik dillə canlandırır. Çətin günlərdə ümid yeri, pənahı yalnız saz olan Z.Yaqub milli musiqi alətimizdən bəhs edərkən onun keçdiyi tarixi yolda el qəhrəmanı Koroğluya, Xəstə Qasım, Dədə Qurbani, Abbas Tufarqanlı kimi ustad aşıqlara ilham mənbəyi, yol yoldaşı, can sirdaşı olduğunu vurğulayır. Aşığın ilk sözü, söhbəti adlandırdığı "Divani" havasından bəhs edərkən yalnız bir janr kimi təqdim etmir. Divanini dənizə bənzədən, onu sonsuz bir ümman kimi qəbul edən şairin könülə müraciətini görürük. Şübhəsiz ki, bu müraciət sıradan olmayıb bütün ruhunun ifadəsi kimi özünü göstərir. Könülə müraciət edərkən, əslində, sirdaşına üz tutaraq xəzinə dolu bu dəryaya baş vurmağını söyləyir. O, havaların başı olan Divanidən danışarkən, azman aşıq Qurbanini köməyə çağırır. Bu müraciət həm ənənəyə sadiq qalmaq, həm də ədəbi-irfani təvazökarlıq nümunəsidir.

Poemada "Qaraçı", "Sarıtel", "Mansırı", "Ruhani", "Yanıq Kərəmi", "Borçalı Dübeyti", "Dilqəmi", "Misri" aşıq havaları bir-birini izləyir. Hər havaya uyğun şəkildə ustad aşıqları – Aşıq Cünunu, Xəstə Qasımı, Aşıq Əmrahı, Aşıq Kamandarı, Aşıq Əsədi, Aşıq Alını, Aşıq Ələsgəri, Dədə Şəmşiri, Hüseyn Saraçlını, Azaflını, Aşıq Əkbəri də unutmur, obrazlarını yaradır. Əsərdə hər bir havanın ustalıqla poetikləşdirilməsi şairin qeyri-adi istedad sahibi olmasını professor Qəzənfər Paşayevin "şairlərimiz arasında aşıq sənətindən, aşıq yaradıcılığından Xalq şairi Zəlimxan Yaqub qədər pay götürən, bu sənət aləmi ilə üzvi surətdə bağlı olan ikinci bir adlı-sanlı şairimiz yoxdur" [2. s.12] sözləri bir daha təsdiqləyir.

Zəlimxan Yaqub "Divani" ilə açdığı bu "Saz məclisini" "Müxəmməs"lə bitirir. Burada şair sazın tarixi yaddaş qoruyucusu olduğuna, onun yalnız keçmişə yox, həm də gələcəyə aidliyindən söz açır. Sonda şair sazla arasındakı mənəvi bağa toxunaraq, sazdan onu özünə ruh yoldaşı, sirdaşı etməsini istəyir.

"Hər nəfəsdən bir od alsın,
Qoy ömrü uzansın yenə.
Özünə sirdaş eləsin,
Şair Zəlimxanı sazım!" [6. s.60]

İlk sözünü də, son sözünü də Qorqud dədəsinə deyən, keçmişini də, sabahını da ozan babasına bağlayan şair özünü böyük ənənənin davamçısı olaraq görür. Taleyinə bir yaraşıq, tarixinə vüqar hesab etdiyi ana saza susmamağı tapşırır. Sazın susmağı sözün, şeirin yox olmağı, xalqın səsinin batırılması deməkdir. Sonda şair buna emosinal etirazını bildirərək

"Yox-yox! Sazın tellərində
Nə susmaq var, nə lallıq var!

Hər pərdənin ahəngində
Bir ölümsüz halallıq var!!!" – deyir
[6. s.61].

"Saz" poeması göstərdi ki, xalq yaradıcılığı zəngin yaradıcılıq mənbəyidir. Onun kökləri üstündə yaranan hər bir sənət əsəri ölməz və bəşəridir" [3. s.75]. Zəlimxan Yaqubun epik poeziyasının dəyərli nümunələrindən olan "Saz" poemasında xalqın milli-mənəvi dəyərləri ustalıqla əks olunmuşdur.

## Nəticə / *Conclusion*

Beləliklə, xalq şairi Zəlimxan Yaqubun "Saz" poeması haqqındakı fikirləri aşağıdakı şəkildə ümumiləşdirə bilərik. Zəlimxan Yaqub bütün ruhu ilə ozan-aşıq sənətinin varisi və ləyaqətli təbliğçisi olmuşdur. O, 1985-ci ildə qələmə aldığı "Saz" poemasında aşıq sənətinə yeni səpkidə münasibət bildirmişdi. Burada verilən müxtəlif aşıqların və saz havalarının obrazlaşdırılması şairin milli-mənəvi dəyərlərimizə göstərdiyi diqqətin, qayğının və sevginin nümunəsi idi. Bu poema vasitəsi ilə soykökünə qayıdış, milli kimlik, milli-mənəvi dəyərlərin qorunmasına çağırış aşılanmışdır.

## Ədəbiyyat / *References*


1. Əhmədov B. Zəlimxan Yaqub: Milli ruhun yaddaşı. Ədəbiyyat qəzeti, 24 yanvar 2022-ci il.
2. Paşayev, Q. Zəlimxanın poeziya aləminə səyahət. "525-ci qəzet", 2015, 16 yanvar. s.12.
3. Rufullayev Q. Zəlimxan Yaqub və xalq yaradıcılığı. – Bakı: Elm və təhsil. 2016, 151 s.
4. Yaqub Z. Seçilmiş əsərləri II cilddə I cild. – Bakı: Şərq-Qərb, 2006. 248 s.
5. Yaqub Z. Əsərləri XIII cilddə I cild. – Bakı: "Şərq-Qərb" Nəşriyyat evi, 2011, 416 səh.
6. Yaqub Z. Əsərləri XIII cilddə VIII cild. – Bakı: "Şərq-Qərb" Nəşriyyat evi, 2012, 376 s.


## Поэма Залимхана Якуба «Саз»


**Хасанова Нармин**
исследователь
Отдел устного народного творчества и письменных памятников
Института литературы имени Низами Гянджеви НАНА
E-mail: nrmn2294@gmail.com



**Резюме.** Залимхан Ягуб, основным направлением художественного творчества которого является искусство ашуга, является поэтом не только Азербайджана, но и всего Туранского региона. В каждом стихотворении, подписанном Залимханом Ягубом, отчетливо прослеживается мировоззрение народа, его забота о своей судьбе, его глубокая любовь к нашему национальному и духовному бытию, его стремление трудиться ради его сохранения. Поэтическое наследие народного поэта Залимхана Якуба полно образцов, совершенных во всех отношениях. Однако его стихи о нашем великом поэте Деде Горгуде, сазе и ашуке являются настоящими жемчужинами художественного мастерства. Рожденное в мире музыки и слова, каждое без исключения стихотворение поэта легко гармонирует с мелодиями музыки. Поэт, ревностный любитель музыки и слова, сам был живым примером фольклора. Любовь мастера-художника, носившего в своей душе фольклор, к ашику и сазу была не случайной. В творчестве Залимхана Якуба мы встречаем десятки примеров ашугских персонажей. Ни одна из этих работ не была повторением другой. Его поэма "Саз" также является оригинальным произведением во всех отношениях. В статье анализируется поэма "Саз" и отражается отношение Залимхана Ягуба к различным ашугским образам, содержащимся в ней, а также к ашугскому искусству в целом.


**Ключевые слова:** озан-ашуг, саз, ашугское искусство, образ, поэма, Залимхан Ягуб